**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 28 yanvar tarixli 13 nömrəli qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında gömrük nəzarətinin həyata keçirilməsi Qaydaları"nda dəyişiklik edilməsi barədə

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 yanvar tarixli 7 nömrəli qərarı ilə təsdiq edilmiş "Gömrük nəzarətinin həyata keçirilməsi Qaydaları"nda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 17 may tarixli 221 nömrəli qərarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 28 yanvar tarixli 13 nömrəli qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında gömrük nəzarətinin həyata keçirilməsi Qaydaları"nın 6.6-cı bəndində "Gömrük Məcəlləsində nəzərdə tutulmuş qaydada mallara və nəqliyyat vasitələrinə dair ilkin məlumatlar təqdim oluna bilər" sözləri "Gömrük Məcəlləsinin 131.1-ci maddəsində nəzərdə tutulmuş məlumatlar təqdim edilməlidir" sözləri ilə əvəz edilsin.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri:** **Ə.Baxşıyev**

«4» iyun 2018-ci il

№ 102